## *Azərbaycan*

### *Şəhidlərin xatirəsinə*

Tarixim Qorqud kitablı,
Haqq səsim nəsimi tablı,
Bu gün mənim ən əzablı
Dastanımdır Azərbaycan.

Öz oduna yanan, bişən,
Naləsi dağları deşən,
Bir iblis toruna düşən
Tərlanımdır Azərbaycan.

Sinəmiz qəfil oxlandı,
Qanımız axdı, buğlandı.
O, şəhid qızdı, oğlandı,
Al qanımdır Azərbaycan.

Uzanır Babəkin yolu
Bədəndən üzülüb qolu.
Yaxası qərənfil dolu
Cavanımdır Azərbaycan.

Analar, örtməyin qara,
Sızıldamaq gəlmir kara.
Qəzəbindən para-para,
Vicdanımdır Azərbaycan.

Düşmən nə deyir, qoy görüm,
Yenə qan istəyir, verim.
Sən pənahım, ümid yerim,
Gümanımdır Azərbaycan.

Qorxutmur bizi ölüm, qan,
Zalımlara vermərik can.
Öz yarasını yalayan
Aslanımdır Azərbaycan.

Allarlı V. Azərbaycan : şeir // Ulduz. – 1991. –№ 1. – S. 30-31.